# KITABŞUNASLIQ –КНИГОВЕДЕНИЕ

**Məmmədov Mehmanəli**

## XÜSUSİ KITABXANALAR VƏ ONLARIN FUNKSIYALARI

"Xüsusi kitabxana" termini kitabxanaşünaslıq elmi ədəbiyyatına ingilis dilindən (special library) keçmişdir. Terminoloji lüğətlərdə bu kitabxanalar sahəvi kitabxanalar kimi təqdim olunur (3,3-7). Görkəmli rus kitabxanaşünas alimi prof.T.F.Karatıginanın fikrincə bu termin keçmiş SSRİ-də ilk dəfə H.B.Xavkina tərəfindən dövriyyəyə daxil edilmişdir. Rəsmi mətbuatda isə "xüsusi kitabxana" termini 1920-ci ildən işlədilməyə başlamışdı. Həmin dövrdən başlayaraq bu termin bir sıra görkəmli kitabxanaşünaslar tərəfindən istifadə edilmişdir (7, 119). Belə ki, 1931-1932-ci illərdə Moskva və Sankt-Peterburqda xüsusi (elmi) Kitabxanaların Assosiasiyası yaradılmış və 1934-cü ildə isə Rusiya Elmi Kitabxanaların Assosiasiyasına daxil edilmişdir. Məhz bu illərdən başlayaraq "xüsusi kitabxanalar" rəsmi "vətəndaşlıq hüququ" qazanmışlar. Keçmiş SSRİ-də ilk dəfə kitabxanaların pasportlaşdırılmasında başqa tip kitabxanalarla yanaşı, sahəvi və elmi kitabxanaların da adı çəkilmişdir.

Texniki kitabxanalar da daxil olmaqla xüsusi kitabxanalar sırasında kənd təsərrüfatı, tibbi, pedaqoji, musiqi kitabxanalarının qruplaşdırılmaların adlarını çəkmək olar. "Xüsusi kitabxana" termini, köhnə kitabxana ənənələri olan Böyük Britaniyada (4) meydana gəlmişdir. Burada belə kitabxanalar alimlər və kitab həvəskarları klubları nəzdində ölkənin müxtəlif əyalətlərində (əsasən, tibbi və tarixi profilli) yaradılmağa başlandı. İlk dəfə bu termin XVIII əsrin sonunda, 1877-ci ildə ölkənin Kitabxana assosiasiyasını təşkil etməyə qərar qəbul etmiş Britaniya kitabxanalarının I konfransında səslənmişdir.

***O zamanlar xüsusi kitabxana dedikdə nəşrlərin növləri müəyyən edilmiş və ya istehlakçıların müəyyən tipi üçün nəzərdə tutulmuş müəyyən profil ədəbiyyat toplusu anlaşılırdı. Rusiya kitabxana işinin tarixçiləri Rusiyada xüsusi (təşkilati) kitabxanaların mənşəyini XVII əsrdə olduğunu göstərirlər (5). Rusiyada ilk xüsusi kitabxanalar arasında Aptekar, Posol, Puşkar və s. struktur vahidlərinin nəzdindəki kitabxanalarını göstərmək olar (4, 81-128) Artıq XVIII əsrdə dağ yerlərindəki məktəblərin, ixtisas məktəblərinin, Elmlər Akademiyasının, elmi təşkilatların kitabxanaları yaradılır. Bu prosesin fəallaşması Rusiyada kapitalizmin inkişafı dövrünə təsadüf edir. İngiltərədə olduğu kimi xüsusi kitabxanalar, bir qayda olaraq, müəssisələrin tərkibinə daxil idilər. Burada xidmət əsasən əməkdaşlara göstərilirdi.***

Çox ehtimal ki, "xüsusi kitabxana" (və ya "texniki kitabxana") sözünə (termininə) uyğun ekvivalent kimi ingilis tərifinə uyğun Con Kotton Dan (1856-1929) tərəfindən daxil edilmiş "işgüzar kitabxana" Amerika terminini hesab etmək olar (6).Con Kotton Dan ***işgüzar kitabxanaların və ABS-ın informasiya orqanlarının formalaşmasında və təkmilləşdirilməsində, həmçinin 1909-cu ildə Xüsusi Kitabxanalar Assosiasiyasının yaradılmasında və metodik rəhbərliyində əhəmiyyətli rol oynamışdır. Öz ingilis həmkarları kimi D.K.Dan da "işgüzar " kitabxananın bütün fəaliyyətini şəxsi və ya dövlət idarələrinin maraqlarına tabe edilməsi uğrunda çıxış edirdi.***

Birinci Dünya müharibəsi ərəfəsində və müharibədən sonrakı dövrdə Böyük Britaniyada xüsusi kitabxanaların təyinatı genişlənir: onlar artıq kitabxanalararası abonement vasitəsilə yalnız özünkülərinə yox, həm də yad oxuculara kitabxana xidməti göstərirdilər.

Birinci Dünya müharibəsi bütün ölkələr qarşısında sənaye potensialının möhkəmləndirilməsi ehtiyacı qoymaqla, müəyyən dərəcəyə qədər elmə və xalq təsərrüfatına xidmət edən kitabxanaların yaradılmasının sürətləndirilməsi, onların qarşılıqlı təsirinin möhkəmləndirilməsinə təkan oldu. XX əsrin birinci üç onilliyində xüsusi kitabxanaların fəaliyyətinin uzlaşdırılması məqsədi ilə ABS-da, İngiltərədə, SSRİ-də ardıcıl olaraq 1909, 1924, 1931-1932-ci illərdə xüsusi kitabxanalar assosiasiyaları yaradılır. 1935-ci ildə Kitabxana Assosiayalarının Beynəlxalq Federasiyası tərkibində xüsusi kitabxanaların altkomissiyası yaradılmışdı. Onun varisi Altkomissiya 1951-ci ilə qədər mövcud olmuşdur. Həm də onun varisi xüsusi kitabxanaların seksiyaları (1936-1976) və xüsusi kitabxanaların bölmələri (1977-ci il) olmuşdur.

*Sovet hakimiyyətinin ilk 20 ili ərzində xüsusi kitabxanaların birinci sovet assosiasiyalarının fəaliyyəti haqqında materialları, birinci dəfə kitabxanaların siyahıya alınması və yaxud digər ədəbi mənbələrə aid sənədlər ilə tanışlıq göstərir ki, xüsusi kitabxanalara müəssisələrin, müxtəlif idarələrin (Xalq Maarif Komissarlığından başqa), təşkilatların nəzdində olan, həmçinin mərkəzi, qovşaq adlandırılan kitabxanalar aid edilirdi. Bu kitabxanalar onların əməkdaşlarının istehsal (peşəkar) və elmi sorğularının təmin olunması üçün yaradılırdı.*

Belə kitabxanaların yaradılması ideyası 1930-cu ilin başlanğıcında RSSFR-ın Xalq Maarif Komissarlığının elm sektoru yanında Kitabxana Komissiyası tərəfindən irəli sürülmüşdü. Mərkəzi kitabxanalar elmin böyük sahələri üzrə güclü fondları toplayır və KAA (Kitabxanalararası abonoment) və sahə üzrə biblioqrafiya mərkəzlərinə çevrilməyə başlamışlar. Kitabxanaların bu növünün yaradılması perspektivliliyi və müasirliyi 1930-cu ildə Kommunist Akademiyasının Kitabxanasının, SSRİ-in Ağır sənayesinin Xalq Komissarlığının Dövlət Elmi Kitabxanası, dəmiryol nəqliyyatının Elmi-Texniki Kitabxana, Elmi-Tibbi Kitabxana, Teatr kitabxanası, Politexnik muzeyinin kitabxanaları, Xalq Maarifi kitabxanalarının fəaliyyəti ilə sübut edilmişdi (4,182). Nəzdində yaradılan müəssisəyə xidmət edərək, mərkəzi (qovşaq) kitabxanalar, eyni zamanda, "ədəbiyyatın müvafiq xüsusi elm sahələri üzrə (ictimai elmlər, kənd təsərrüfatı, texnika, təbiətşünaslıq və s.) respublika miqyasında kitabxanalar ayrı-ayrı elmi-tədqiqat institutları, dövlət müəssisələr və ali məktəblərin nəzdində kitabxanalar üçün zəruri baza olmağa

başladılar..." (4, 79).

**Beləliklə, ilk dəfə kitabxanaların siyahıya alınması Sovetlər ölkəsinin istər bu və ya digər müəssisə nəzdində, istərsə də, muxtar şəkildə məhdud sahəli və ya çoxsahəli kitabxanaların yaranması faktını təsdiqləmişdi. Sovet hakimiyyətin ilk illərində xüsusi kitabxanaların yaradılması kütləvi (onda onlar kütləvi, ictimai və ya ümummarifləndirici adlandırılırdı) və elmi (universal və dövlət ictimai) kitabxanaların inkişafı ilə paralel gedirdi.**

Qeyd edilməlidir ki, əgər söhbət ancaq xüsusi yox, həm də mərkəzi (qovşaq) çoxsahəli kitabxanalar haqqında gedirsə, "xüsusi" əcnəbi sözünün məzmunu rus dilində onun izahatına tamamilə uyğun gəlmir. Burada "Xüsusi" – sözü yalnız məhdud sahəli yox, həm də çoxsahəli kitabxanaya deyilir.

Sovet kitabxanaşünaslığında xüsusi və bütövlükdə bütün elmi kitabxanaların fəaliyyətini xarakterizə edən əsas əlamət sorğuların təmin olunması hesab olunurdu. Bu sorğular "elmi və istehsal fəaliyyəti, xalq təsərrüfatının bütün sahələri üçün yüksək ixtisaslı mütəxəssis kadrlarının hazırlanması ilə bağlı idi" (7,116).

"Xüsusi kitabxana" termininin məzmununda onun təkamülünün öyrənilməsi və ətraflı tədqiqatı bizdə və xaricdə böyük məqalənin mövzusu ola bilər. Ancaq qeyd edilməlidir ki, son zamanlar bu terminin birmənalı izah edilməsi ehtiyacı yalnız regional deyil, həm də beynəlxalq miqyasda daha çox aktuallıq kəsb edir.

Bu məsələdə ümumi dil tapmaq cəhdi İFLA-nın 42-ci sessiyasında xüsusi kitabxanaların seksiyasının fəaliyyətində özünü əsaslı şəkildə ifadə etmişdi (15). Terminoloji istiqaməti isə tam şəkildə F.E.Mak-Kennin (ABŞ-ın Xüsusi kitabxanalar Assosiasiyası) məruzəsində öz əksini tapmışdır. Məruzəçi xüsusi kitabxananın aşağıdakı dörd əlamətini qeyd etdi. Bu, elə bir müəssisədir ki, burada:

- bir və ya daha çox predmetlər (şəkillər, xəritələr, səsyazmalar) və ya formatlar qrupu üzrə informasiyanın (biliklərin) fiziki kolleksiyası formalaşdırılmışdır;
- onun inkişafına maliyyə yatıran bu və ya digər müəssisəyə və ya təşkilata tabe olur;
- peşəkar kitabxana bilikləri ilə predmetin biliyini özündə birləşdirən kitabxanaçı və ya mütəxəssis tərəfindən idarə edilir;
- tədqiqatçılar həmin müəssisənin inkişafının ən perspektivli istiqamətləri üzrə məlumata keçidi əldə etməyə, təmin etməyə, təşkil etməyə cəlb edilmişdir.

Kitabxananın təyinatı (başqa bir şey yox) onun komplektləşdirməsinin profilini, oxucuların kontingentini, formaların və iş metodlarının seçimini müəyyən edir. Yalnız belə yanaşma sayəsində müxtəlif idarələrdə fəaliyyət göstərən kitabxana müəssisələrinin tipik xüsusiyyətlərini müəyyən etməyə və elm, sənaye, kənd təsərrüfatı sahələrində kitabxana xidmətinin bu və ya digər məsələsinin icrasında onların rolunu dəqiq aşkar etmək olar.

***Artıq yuxarıda deyildiyi kimi, xüsusi kitabxanalar ya müstəqil olur, ya da bu və ya digər müəssisənin struktur bölməsi olmaqla, həmin müəssisəsinin maraqlarının təmin olunması, onun kitab komplektlərinin komplektləşdirməsi, təşkili və təbliği üzrə kitabxana işini həyata keçirir. Elmi müəssisələrlə, layihə -konstruktor təşkilatları ilə üzvi surətdə bağlı olaraq, xüsusi kitabxanalar onların tərkib hissəsinə çevrilmişdir.*** Bu, kitabxanaların əhəmiyyətli üstünlüklərindən biridir. Çünki onlar təşkil olunmuş, nisbətən sabit kollektivlərə xidmət edir. Bu və ya digər kitabxananın xüsusi kitabxana dərəcəsinə aid edilməsinin ümumi meyarını təyin edərkən, eyni zamanda bu kitabxananın fəaliyyət göstərdiyi həmin ölkənin (ölkələrin) sosial, siyasi, iqtisadi şəraiti ilə bu fəaliyyətin xarakterinə göstərdiyi böyük təsiri də qeyd etməliyik.

Keçmiş SSRİ-də xüsusi kitabxanaların məqsədləri, məzmunu və iş metodları ölkə tərəfindən həll edilən sosial məsələlərlə, bütün mütəxəssislərin cəmiyyətin maddi-texniki bazasının yaradılmasında fəal, yaradıcı, şüurlu, peşəkar iştirakını tələb edən elmi-texniki tərəqqinin xarakteri ilə təyin olunurdu. Qərb sosioloqları "mədəni-texnoloji səviyyə" anlayışının mənasını yalnız peşəkar hazırlıq ilə məhdudlaşdırırlar.

***Mövcud cəmiyyətdə bu anlayış genişləndirilmiş, yeni məzmunla zənginləşdirilmişdir və özünə yalnız peşəkar bilikləri və istehsal təcrübəsini yox, həm də elmi dünyagörüşünün formalaşması, ictimai-siyasi hazırlığı, ümumi mədəni səviyyənin yüksəldilməsi və estetik baxışların inkişafını daxil edir. Bununla həm də sovet kitabxanalarının mədəni-maarif və təbliğatçılıq işinin əsas istiqamətləri müəyyən edilmişdir:***

- ***elm və sənaye işçilərinin ideoloji mətnliyinin təmin edilməsi və onların ümumi dünyagörüşünün formalaşması***
- ***oxucuların ümummədəni, elmi-texniki dünyagörüşünün genişlənilməsi;***
- ***peşəkar qiraətin təşkilinə və qabaqcıl iş təcrübəsinin tətbiqinə yardım.***

***Yuxarıda şərh edilən əsaslandırılmış elmi nəzəri müddəalara söykənərək cədvəl 1-də xüsusi kitabxanaların ayrıca kitabxana tipi kimi inkişafının ümumi mənzərəsini özündə əsasən ehtiva edən nəzəri yanaşma sxematik planda göstərilmişdir.*** Beləliklə, əlaqələr sxemi, yəni tip (elmi kitabxana); növ (xüsusi kitabxana) və qrup (texniki, kənd təsərrüfatı kitabxanası və s.) aşağıdakı kimi qurula bilər: ***Azərbaycan kitabxanaşünaslığında kitabxanaların tipinə və növünə görə təsnifləşdirilməsi konsepsiyasının müəllifi, görkəmli kitabxanaşünas alim, prof.A.A.Xələfovun fikrinə görə xüsusi tip kitabxanalar ayrıca təşkil olunaraq fəaliyyət göstərən idarə və müəssisələrin, eləcə də ictimai birlik və təşkilatların nəzdində, onların struktur funksional komponenti kimi səciyyələndirilir. Prof.A.A.Xələfov göstərir ki, bu şəbəkə bilavasitə ayrı-ayrı idarə və təşkilatlar, elm və təsərrüfat müəssisələri tərəfindən yaradılır və əsasən onların stukturuna daxil edilir (1, 365-366).***

***Prof.A.A.Xələfov xüsusi kitabxanaları 3 əsas qrupa bölmüşdür: sosial-siyasi, təbii-elmi və tətbiqi.***

***Göstərilən qruplarda öz növbəsində elm və sənaye sahələrinə, həmcinin inzibati-tabecilik prinsipinə görə bölünürlər. Mahiyyət etibarı ilə bu yanaşma əvvəldə göstərilən ümumi, nəzəri və elmi yanaşmaların yeni , daha təkmilləşdirilmiş, tutarlı faktlarla əsaslandırılmış istiqamətdir.***

Xüsusi kitabxanaların diqqət mərkəzində yeni texnika və qabaqcıl texnologiya haqqında ədəbiyyatın təbliğatı durur. Oxucuların ideya tərbiyəsi, ixtisasartırılma və xalq təsərrüfatı işçilərinin mədəni-texniki səviyyəsinin yüksəldilməsi ilə sıx bağlı olmalıdır. Bu kitabxanalar alimlərin, mütəxəssislərin və ixtiraçıların konkret peşə sorğularına cavab verməlidir. Xüsusi kitabxanalar bilavasitə məxsus olduqları elmi idarə və müəssisələrin kollektivinə xidmət göstərir. Xüsusi kitabxanaların fondu kitab və dövrü mətbuatla yanaşı olaraq, standartlarla, ixtiraçıların təsviri ilə, rəsmi idarə nəsrləri ilə, hesabatlarla, çertyojlarla və audivizual materiallarla komplektləşdirilə bilər. Burada, həmcinin kartoqrafik nəşrlər, audivizual materiallar, notlar və digər informasiya xarakterli nəşrlərdə olmalıdır.

Ölkəmizin zəngin kitabxana təcrübəsi xüsusi kitabxanaların əsas sosial proseslərdə aparıcı sosial funksiyalarının necə təzahür tapdığını göstərir. Bu da, öz növbəsində, əsas məsələnin icrasına yönəldilmiş kitabxana işi metodlarında, yeni insanın təlim və tərbiyəsi üçün kitab sərvətlərinin daha tam istifadəsində kitabxanaların rolunun gücləndirilməsində, elmi-texniki tərəqqinin sürətləndirilməsində öz ifadəsini tapır.

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT**

1.Xələfov A.A. Kitabanaşünaslığa giriş.- 2001.- 398 s.
2.Məmmədov M.Ə. Azərbaycanda texniki kitabxanaların inkişafı.-B,2016.- 281 s.
3.Моргенштерн И.Г. Основные термины информационной работы библиотеки.- Науч. и техн. Биб-ки СССР.- 1977.- № 2.-с.3-7
4.Ошанина Е.А. Библиотечное обслуживание науки и техники в Великобритании. Ист.обзор.-М.,1981.- 15 с.
5.Клещук С.Е. Джон Кортон Дана (ист.очерк.- ) Науч. и техн. Биб-ки СССР.- 1971.- -с.26 – 29
6.Международная Федерация Библиотечных Фссоциации.- М., 1986.- 99 с.
7.Каратыгина Т. Ф. Специальные библиотеки на фоне истории страны.- М., 2012.- 115 с.

## Special Libraries and their functions

**S u m m a r y**

The scientific article provides data on the creation, development and modernization of special libraries. The role of special libraries among the library network and also readers of these libraries and the organization of fund are also defined in the article. This network is created by separate departments and organizations, scientific and economic institutions and generally works within their structure.

**Key words:** special libraries, scientific libraries, technical libraries, branch libraries

## Специальные библиотеки и функции

**Резюме**

Статья изучает создание, развития и современное состояние специальных библиотек. Определяется роль специальных библиотек в бибдиотечной сетьи и определяется взаимоотношении читателей с формированием фонда. Специальные библиотеки создаются при отдельных учреждений, хозяйственных субектов и имиже содерживается.

**Ключевые слова:** Специальные библиотеки, научные библиотеки, технические библиотеки, отресловая библиотеки

***Rə yçi: professor Bayram Allahverdiyev***